Korrupsiya, PL/TMM və kölgə iqtisadiyyatına qarşı mübarizədə auditorların öhdəliklərinə həsr olunmuş tematik kurslar, treninq və praktik məşğələlər, həmçinin bu mövzuda digər tədbirlərdə iştirak barədə

ARAYIŞ

28.01.2021-ci il tarixdə aşağıdakı mövzular üzrə vebinar keçirilmişdir.

1. Auditorların Müstəqillik Qaydalarına dair silsilə seminar
2. İFAC-a təqdim edilmiş Fəaliyyət Planı barədə
3. BAS-lara edilmiş dəyişikliklər barədə
4. Yol Xəritəsində kölgə iqtisadiyyatının aşkar edilməsi və qarşısının alınması üzrə auditorların vəzifə və öhdəliklərinə dair.

Seminar işgüzar şəraitdə keçirilmiş, müzakirələr edilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

Vebinarın videoyazısı aparılmış və iştirakçılar qeydiyyata alınmışdır.

25.02.2021-ci il tarixdə aşağıdakı mövzular üzrə vebinar keçirilmişdir.

1. Auditorların Müstəqillik Qaydalarına dair silsilə seminar (2-ci seminar)
2. İFAC yenilikləri və BAS-lara edilmiş dəyişikliklər barədə
3. Korrupsiya, PL/TM və kölgə iqtisadiyyatına qarşı mübarizədə auditorların öhdəlikləri barədə (Silsilə seminar).
4. Auditə ictimai etimadın gücləndirilməsi və auditin təşviqinə dair.
5. "MONEYVAL Komitəsinin V raund qiymətləndirilməsinə hazırlıq çərçivəsi barədə.

Seminar işgüzar şəraitdə keçirilmiş, müzakirələr edilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

Vebinarın videoyazısı aparılmış və iştirakçılar qeydiyyata alınmışdır.

13 aprel 2021-ci il

- Korrupsiyaya qarşı mübarizə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə auditorların vəzifələrinə dair,
- PL/TMM üzrə yoxlamaların aparılmasına məsul olan ixtisaslaşmış əməkdaşlar və mütəxəssislər üçün məqsədli seminar,
- Monitorinq və nəzarəti həyata keçirən şəxslərin peşə ixtisas səviyyələrinin yetərliliyinin təmin edilməsi üzrə praktik məşğələlərinin təşkil edilməsi bəndləri əhatə olunmuş,
- habelə auditorlara İFAC-ın müraciətinə görə 30 mart 2021-ci il tarixdə IFAC və EFAA-nın birgə "Будущее малых и средних аудиторских организаций: уроки кризиса и трансформация деятельности" adlı veb-seminar barədə məlumat verilmişdir.

02 iyun 2021-ci il

İFAC-ın «02» iyun 2021-ci il tarixində keçirilən Raising the Bar on Quality Management: The IAASB's New QM Standards (Keyfiyyət İdarəçiliyinin Yüksəldilməsi: IAASB -nin Yeni QM Standartları) vebinarənda iştirak etmişəm. Vebinarda müzakirə olunmuşdur:

Maria Çuvaşeva
IFAC -ın Keyfiyyət və İnkişaf üzrə Baş Texniki Meneceri
Giriş sözü
Daniel Boyce
Şərqi Avropa və Mərkəzi Asiya üzrə Təcrübə Meneceri,
İdarəetmə Qlobal Təcrübəsi, Dünya Bankı
IAASB Keyfiyyət İdarəetmə Standartlarının yeni paketi
• QM standartlarına və firmanın risk qiymətləndirmə prosesinə ümumi baxış
• Resurslar, informasiya və ünsiyyət və monitorinq və düzəliş
• Şəbəkələr və digər aspektlər
• ISQM 2
• ISA 220 (Yenilənmiş)
• Dəstəkləyici materiallar və onları necə izləmək olar
Badem Sue
IAASB İdarə Heyətinin üzvü və ISQM 1 İş Qrupunun üzvü
Natali Klonaridis
IAASB direktor müavini
Sual -Cavab moderatoru:
Paskal Frerejak
Senior Operations Officer, CFRR, Dünya Bankı

30 iyun 2021-ci il

Auditorlar Palatası Şurasının 18 iyun 2021-ci il tarixli 331/6 №-li "Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş"in layihəsi barədə Qərarının 3. "..bu metodik göstərişin auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil olunması və cari ilin iyul ayında metodik göstərişə dair auditorlar üçün seminarın keçirilməsi təmin edilsin. bəndinin icrası ilə əlaqədar.

Seminar işgüzar şəraitdə keçirilmiş, müzakirələr edilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

12 iyul 2021-ci il

Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 6.1-ci "Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi" bəndinə əsasən12.07.2021-ci il tarixdə aşağıdakı mövzular üzrə vebinar keçirilmişdir.

1.Auditorların müstəqillik qaydalarına dair vebinarların tədris qrafikinin 5-ci bəndi:

22-ci altbölmə – Məhkəmə prosesinə dəstək xidmətləri

23-cü altbölmə – Hüquqi xidmətlər

24-cü altbölmə – İşə qəbul xidmətləri

25-ci altbölmə – Korporativ maliyyə xidmətləri

26-cı bölmə Xüsusi təyinatlı konsepsiyaya uyğun olaraq hazırlanmış, istifadə və yayım məhdudiyyətləri olan maliyyə hesabatlarına dair auditor rəyi

2. Auditorlar Palatası Şurasının 18 iyun 2021-ci il tarixli 331/6 №-li "Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş"in layihəsi barədə Qərarının 3. "..bu metodik göstərişin auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil olunması və cari ilin iyul ayında metodik göstərişə dair auditorlar üçün seminar.

Seminar işgüzar şəraitdə keçirilmiş, müzakirələr edilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

15 iyul 2021-ci il

2021-ci il 09 iyul tarixli 424 nömrəli dərkənara əsasən 15.07.2021-ci il tarixdə SRO AAS-ın Beynəlxalq Münasibətlər Komitəsinin təşkil etdiyi veb seminarda Palatanın nümayəndələri iştirak etmişlər:

Veb seminarın tarixi: 15 iyul (cümə axşamı) 2021

Vebinarın vaxtı: 11-00-dən 14-00-dək (Moskva vaxtı ilə)

Mövzu: "Audit keyfiyyəti üçün yeni standartlar: ISC 1, ISC 2 və yenidən işlənmiş ISA 220".

Baxılan məsələlər:

- Firmaların keyfiyyət idarəetmə sistemlərinə yeni proaktiv, risk əsaslı yanaşma

· İnkişaf edən və getdikcə mürəkkəb bir mühit üçün standartların modernləşdirilməsi, o cümlədən texnologiyanın, şəbəkələrin və xarici xidmət təminatçıları istifadəsinin təsirini nəzərə almaq.

· İdarəetmə məsuliyyətinin və hesabatlılığının artırılması, həmçinin firmanın təkmilləşdirilmiş rəhbərliyi

-Keyfiyyət idarəetmə sistemlərinə daha ciddi nəzarət və çatışmazlıqların aradan qaldırılması

· Tapşırıq menecerinin tapşırıq idarəçiliyi və audit keyfiyyəti üçün məsuliyyətinin artırılması

· Tapşırıqların seçilməsi, sənədləşmə və nəticələr daxil olmaqla tapşırığın keyfiyyətə nəzarət çeklərinin etibarlılığı probleminin həlli

Məruzəçi: Myshenkov Alexander Vyacheslavovich - Keyfiyyətə Nəzarət Komissiyasının üzvü, Standartlaşdırma və Audit Metodologiyası Komitəsinin üzvü, PwC Audit SC-nin baş meneceri.

Vebinar işgüzar şəraitdə keçirilmiş, müzakirələr edilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

PL/TMM-lə bağlı plandankənar tədbirlər

19 fevral 2021-ci il

Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin 17 fevral 2021-ci il tarixli e-malinə əsasən Mili Risk Qiymətləndirilməsi çərçivəsində Təhdidlərin qiymətləndirilməsi qrupunun 19 fevral 2021-ci il tarixdə saat 15:00-da keçirilmiş ilk iclas.

İclasda Təhdidlərin qiymətləndirilməsi bağlı Dünya bankının metodologiyası təqdim olunmuşdur.

Qeyri-maliyyə institutları və peşakarları üzrə zəifliklərin qiymətləndirilməsi bağlı Dünya bankının metodologiyası təqdim olunmuşdur.

22 fevral 2021-ci il

Mili Risk Qiymətləndirilməsi çərçivəsində Qeyri-maliyyə institutları və peşakarları üzrə zəifliklərin qiymətləndirilməsi işçi qrupunun ilk iclası 22 fevral 2021-ci il saat 11:00-da keçirilmişdir.

23 fevral 2021-ci il

PL/TMM üzrə Milli Risk Qiymətləndirilməsi çərçivəsində Milli zəifliklərin qiymətləndirilməsi üzrə işçi qrupunun ilk iclası 23 fevral 2021-ci il saat 11:00-da keçirilmişdir.

13 aprel 2021-ci il.

Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin 19 fevral 2021-ci il tarixli e-malinə əsasən PL/TMM üzrə Milli Risk Qiymətləndirilməsi çərçivəsində Milli zəifliklərin qiymətləndirilməsi üzrə "QEYRİ-MALİYYƏ İNSTİTUTLARI/PEŞƏKARLARI SEKTORUNDA ZƏİFLİKLƏR"Ə dair vebinar keçirilmişdir.

30 aprel 2021-ci il.

Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş 2021-ci il 03 mart tarixli məktubda bildirilmişdir ki:

"...aşağıdakı sənədlər cavablandırılma məqsədilə təqdim olunur:

- DNFBP-lər üzrə sorğu anketi
- MRQ-DNFBp-01.03.21

Qeyd olunan hər iki sənədin aidiyyəti qurum üzrə 1 may 2021-ci il tarixinə qədər göndərilməsi xahiş olunur. Hər bir bənd üzrə cavabların müvafiq nömrələmə altında (məsələn, 12.11-ci bəndin cavabını onun qarşısında eyni nömrələmə ilə) qeyd olunmasını xahiş edirik. Bəndlər üzrə əgər hər hansı bir dəqiqləşdirmə və ya düzəliş aparılacaqsa, bunun "track change /исправления" funksiyası aktivləşdirilməklə edilməsini xahiş edirik. Bundan başqa, əgər bir qurumdan müxtəlif struktur bölmələri təmsil edən bir neçə nümayəndə varsa, sorğuların qurumdaxili koordinasiya əsasında cavablandırılaraq vahid sənəd qismində təqdim edilməsi məqsədəuyğundur.

Sorğu anketi üzrə qeyd:

Sorğu vərəqinin 1, 2, 3, 4-cü bəndləri nəzarət orqanları tərəfindən, 5-10-cu bəndləri isə həm nəzarət orqanları, həm də nəzarət subyektləri tərəfindən cavablandırılmalıdır."

Göstərilən "QEYRİ-MALİYYƏ İNSTİTUTLARI/PEŞƏKARLARI SEKTORUNDA ZƏİFLİKLƏR ÜZRƏ SORĞU ANKETİ", cəmi 31 anket olmaqla, həm Palata adından, həm də Palatanın təşkilati və metodoloji dəstəyi ilə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən tərtib olunaraq Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim olunmuşdur

30 iyun 2021-ci il

2021-ci il 13 iyul tarixli 428 nömrəli dərkənara əsasən Azərbaycan Respublikası Maliyyə Monitorinqi xidməti tərəfindən məlumat və xidməti istifadə üçün təqdim olunmuş Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə tipologiyalara (mexanizmlər, alətlər və üsulların ümumiləşdirilmiş mexanizmləri) baxılmışdır. Diskdə verilmiş aşağıdakı materialları çap edərək Palatanın struktur bölmələrinin tərəfindən məlumat və xidməti istifadəsi üçün təqdim edilmişdir.

16 iyul 2021-ci il

2021-ci il 16 iyul tarixdə Aİ/AŞ-nın Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramı II “Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi” Layihəsi Rəhbər Komitənin İkinci İclası.

Tədbirdə iştirak edirdilər:

Səfir Zoltan HERNYES, Avropa Şurasının Bakı ofisinin rəhbəri

Cənab Evgeni EVGENYEV, Avropa Şurası Katibliyinin İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin Şərqi və Cənub-Şərqi Avropa üzrə Bölmə müdiri

Xanım Məryəm HACI-İSMAYILOVA, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Beynəlxalq yardım və əməkdaşlıq üzrə Məsul Şəxsi

Cənab Natiq EYVAZOV, Azərbaycan Respublikasının Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və İnformasiya Təminatı İdarəsinin rəisi

Cənab Fuad ƏLİYEV, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin Əməkdaşlıq Departamentinin direktoru

Tədbirdə yuxarıdakı şəxslərin və Layihənin Fəaliyyət Planı üzrə icranın nəzərdən keçirilməsi: həyata keçirilmiş layihə tədbirləri haqqında qısa icmal, Xanım Firuzə CƏFƏROVA, Layihə üzrə Məsul Şəxs, Avropa Şurasının Bakı Ofisi, Nəzərdə tutulmuş

layihə tədbirləri haqqında təqdimat və Xanım Danae İSSA, Avropa Şurası Katibliyinin İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin Proqram Meneceri çıxış etdilər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarına uyğun olaraq yaradılmış Koordinasiya Şurasının alt qrupu olan "Qanunvericiliyin harmonizasiyası" işçi qrupun

FATF Tövsiyələrinin implementasiyası məqsədi ilə aşağıdakı istiqamətlər üzrə qanunvericilik paketləri hazırlanacaq:

- "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanun və digər aidiyyəti qanunvericilik layihələrini özündə birləşdirən qanunvericilik paketi (qanunvericilik paketi hazırdır);

- "Hədəfli maliyyə sanksiyaları haqqında" Qanun və digər aidiyyəti qanunvericilik layihələrini özündə birləşdirən qanunvericilik paketi (qanunvericilik paketi hazırdır);

-Benefisiar mülkiyyətçi institutunu özündə birləşdirən qanunvericilik paketi (qanunvericilik paketi hazırdır, Avropa Şurası tərəfindən müəyyən edilmiş müvafiq ekspertlə razılaşdırma mərhələsindədir);

- Məcburi paralel maliyyə istintaqını özündə birləşdirən qanunvericilik paketi (müvafiq layihə hazırlanır);

-Qeyri-kommersiya təşkilatlarının fəaliyyətini tənzimləyən qanunvericilik paketi (müvafiq layihə hazırlanır).

2) Varşava Konvensiyasının (CETS198) müddəalarının milli qanunvericiliyə implementasiyası məqsədi ilə:

-Konvensiya təhlil ediləcək və müqayisəli cədvəl hazırlanacaqdır;

- Konvensiyanın implementasiyası məqsədi ilə qanunvericilik paketi hazırlanacaqdır.

Qeyd etmək istərdim ki, hazırlanmış və hazırlanan layihələr müvafiq sahədə ixtisaslaşmış xarici ekspertlər tərəfindən ekspertiza edilir. Hər bir layihə paketinə dair xarici ekspert tərəfindən təqdim edilən texniki sənəd əlavə ediləcəkdir (ingilis dilində).

01.03.21-ci il Birinci iclas

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Qanun layihələrinin müzakirəsi

2021-ci il 31 mart. İkinci iclas
Varşava Konvensiyasının (CETS198) müddəalarının milli qanunvericiliyə implementasiyası məqsədi ilə hazırlanmış "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsini

1. FATF-ın 30-cu Tövsiyəsinin implementasiyası məqsədi ilə "Məcburi paralel maliyyə istintaqına" dair layihə hazırlanmışdır. Layihə eyni məsələnin ilkin müzakirəsi ilə əlaqədar Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Vergi Xidmətinin nümayəndələrinin iştirakı ilə keçilmiş görüşdə verilmiş qərara uyğun olaraq Maliyyə Monitorinqi Xidməti tərəfindən hazırlanmışdır. Layihə "Məcburi paralel maliyyə istintaqına" dair konseptual çərçivəni müəyyən edir. Maliyyə Monitorinqi Xidməti cinayət prosesini həyata keçirmədiyi üçün lahiyə üzrə boşluqların mövcud olmasını məqbul qarşılamağı və bu boşluqların aradan qaldırılması üçün yardımçı olmağınızı xahiş edirik.
   Layihənin müzakirəsinin qrup şəklində aparılması zərurəti olarsa, bu barədə Maliyyə Monitorinqi Xidmətinə məlumat verməyinizi xahiş edirik.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarına uyğun olaraq yaradılmış Koordinasiya Şurasının 2020-ci il 25 dekabr tarixində keçirilmiş iclasının yekun Protokolunun 11-ci bəndinin icrası ilə əlaqədar milli qanunvericiliyin Azərbaycan Respublikasının tərəfi olduğu "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurası Konvensiyasının (CETS 198) müddəalarına uyğunluğunun diaqnostikası aparılmışdır (cədvəl əlavə olunur).

2 mart 2021-ci il tarixində

V raund MONEYVAL qiymətləndirməsinə hazırlıq məqsədilə təlim seminar

Maliyyə Monitorinqi Xidmətinin

23 fevral – 14 mart 2021-ci il

PL/TMM üzrə yoxlamaların aparılmasına məsul olan ixtisaslaşmış əməkdaşların və mütəxəssislərinə treninqlər keçirilib.

20 may 2021-ci il

Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiya qarşı Mübarizə Baş İdarəsində "Dövlət satınalmalarıilə bağlı" Avropa İttifaqının tədbiri.